**Güney Azərbaycanın Milli Mübarizə Bayrağı Haqqında**

**BİRGƏ BƏYANAT**

Əziz Azərbaycan Türk Milləti!
Qələm sahibləri və mətbuat məsulları!
Azərbaycan Milli Hərəkatı fəalları!



Bildiyiniz kimi, Güney Azərbaycanın milli mübarizəsi üzrə ortaq bayrağın və simvolun təyin edilməsi fars hakimiyyəti müstəmləkəçiliyinə, istibdadına və irqçiliyinə qarşı milli mübarizədə siyasi zəruriliyindən savayı, milli mübarizədə birliyin yaradılmasına atributlardan biri hesab olunur. Amma bu bəyanatda vurğulayacağımız səbəblərə görə, bu məsələ ötən illərdə Azərbaycan Milli Hərəkatında sarsıldıcı bir fikir məşğulluğuna çevrilmişdir.

Qacar Türk sülaləsi, Anyasa İnqilabının (Məşrutə) hədəflərinin geriyə vurulması və müsadirə olunması və Pəhləvi sülaləsinin iqtidara gəlməsi üçün çökdürüldüyündən sonra, fars mərkəziyyətçi və totalitar sistemi İranda çoxmillətlilik və birgə yaşama söykənən sisteminin yerinə keçdi. Bununla da bütün mədəni, ictimai, iqtisadi və siyasi təməllərin hamısı fars olmayan millətlərə qarşı dəyişildi.

Bu ərəfədə, Türk imperatorluqlarının bayraqlarının gəlişmiş forması olan Məmalik-i Məhrusə-yi Qacar aslan və günəş simvollu “Şir-i Xurşid” bayrağı bu totalitar cərəyan tərəfindən öz xeyrinə mənimsənilmişdir. Güney Azərbaycan isə, həmin tarixi zaman kəsiyindən bəri, “Vətən Azərbaycandır” hüdudlarında öz milli Türk kimliyinə dönmək üçün bir tarixi təkamül prosesi və gedişinə daxil oldu.

Güney Azərbaycanın Milli Mübarizəsinin təkamülü tarixində, son yüz il ərzində və fərqli dövrlərdə, Azərbaycanın azadlığı yolunda mübarizə edənlərin tərəfindən, azca fərqlərlə, həmin bayrağa və simvola oxşar bayraqlar qaldırılmış və hərəsi öz mübarizə şəraiti və yolunun əsasında bu bayraqların yaradılması barədə özlərinə məxsus nəzəriyyələr irəli sürmüşlər.

Bu gün, Güney Azərbaycan milli hərəkatı öz tarixi təkamülü zirvəsində olaraq əbədi və əzəli “Azərbaycan Vətəni” və “Türk Milliyəti” düşüncə çərçivəsində, hər zamandan daha çox, milli mübarizə simvolu və bayrağının olması vacibliyini və onun Güney Azərbaycanın milli hərəkatının mübarizə təməllərinin bərkidilməsi və çevrəsində potensialının toplaşması zəruriliyini, təşkilatlanmış

və sistematik mübarizənin zəruriliyi kimi danılmaz bir məsələ olduğunu bilir və bu iki önəmli ünsürü milli mübarizədə əməl birgəliyinin təməlləri kimi qəbul edir.

Bu hallara baxmayaraq, bir tərəfdən Azərbaycanın özünə xas şəraiti, o cümlədən artıq ancaq adları qalmış iki Qacar və rus Çar dövlətlərinin müqaviləsinə əsasən bir xalqın iki Quzey və Güney hissəyə böldürülməsi, Quzey və Güney Azərbaycanda müəyyən bir zaman kəsiyində dövlət qura bilmiş milli dövlətlərin 1920-ci və 1946-ci illərdə çökdürülmələri, digər tərəfdən isə milli dövlətlər və milli bayraqlar üzrə beynəlxalq qanunların olması, milli bayraq və milli mübarizə bayrağı debatının Güney Azərbaycan Milli Hərəkatının başlıca və düşündürücü bir məsələsinə çevrildiyinə səbəb olmuşdur.

Quzey Azərbaycanda siyasi qrupların tərəfindən mübarizə simvolu kimi müxtəlif simvol və nişanların irəli sürüldüyünə baxmayaraq, 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı “bayraq məsələsi üzrə birgə söykənmə nöqtəsi” təkin bütün qrupların tərəfindən qəbul olmuş və bununla da SSRİ-nin müstəmləkəçiliyinə qarşı milli mübarizə cəbhəsinin güclənməsi və bərkiməsinə gətirib çıxarmışdır.

Şərq bloku çökərək Sovet Sosialist Respublikaları İttifaqının əsarətində olan millətlərin istibdad, müstəmləkə və istismar zəncirləri qırılmaqla Azərbaycanın azadlığı və qurtarılması hərəkatında iştirak edən qrupların hamısı bütün öz partiya və qrup simvollarını və nişanlarını bir yana buraxaraq, milli dövlətin bayrağı (1918-ci ildə Azərbaycan Cümhuriyyətinin Milli Məclisi tərəfindən seçilmiş bayraq) demokratik bir gedişlə Azərbaycan Cümhuriyyətinin Milli Məclisində müzakirəyə qoyulmuş və mütləq səs çoxluğu ilə “Azərbaycanın Milli Bayrağı” kimi ratifikasiya olunmuşdur.

Fars hakimiyyətinin müstəmləkəçiyi, diktaturalığı və irqçiliyinə məruz qalmış Güney Azərbaycanda da milli mübarizə simvolu və bayrağı Güney Azərbaycanın azadlığı və qurtuluş hərəkatının önəmli mübahisələrindən birinə çevrilmişdir. Güney Azərbaycanın siyasi qüvvələrinin hamısı, azərbaycanlılar üçün bir milli bayrağın olmasına inandıqlarına və Bir Xalq-Bir Bayraq prinsipi ilə öz mübarizələrini davam etdirdiklərinə baxmayaraq, beynəlxalq qanunlar və diplomatik prinsiplər Azərbaycan Respublikasının indiki bayrağı olaraq, 1918-ci ildə Azərbaycan Demokratik Cümhuriyyəti bayrağının milli mübarizə gedişində, o cümlədən toplaşmalarda, rəsmi, siyasi və diplomatik görüşlərdə qaldırılmasına qarşıdır. Ona görə də, zamanla bu siyasi zərurəti başa düşərək, Azərbaycan Milli Hərəkatının hər bir siyasi cərəyan və təşkilatları bir birinə yaxın və oxşar nəzəriyyələrlə müxtəlif simvol və bayraqlar irəli sürdülər, amma bu hallara rəğmən, Güney Azərbaycanın tarixçəsi olmuş siyasi cərəyanların hamısının milli mübarizə ruhu, ulu Məhəmməd

Əmin Rəsulzadənin rəhbərliyi ilə Azərbaycan Demokratik Cümhuriyyətinin çıxardığı bayrağına sadiq və vəfalı qalır.

Yuxarıda vurğulanmış izahları və milli mübarizə üçün simvolun tərif olunması məsələsində birgə cəbhənin təşkil olunması zərurətini nəzərə alaraq, bununla Azərbaycanın Türk xalqına bildiririk:

Güney Azərbaycanın milli taleyinin təyin edilməsi üçün milli mübarizənin bu həssas ərəfəsində, eləcə də bölgə və İranın daxilində siyasi müadilələr və dəyişiklikləri və milli birgəliyin yaranması zəruriliyini başa düşərək Azərbaycan Mərkəz Partiyası və Azərbaycan Milli Dirəniş Təşkilatı yuxarıda bildirilmiş tarixi zərurətə inanıb söykənərək və milli hərəkət üzrə təqdim olunmuş fikir, simvol və bayraqlara saygı ilə, təşkilatlar arası uzun müddətli danışıqlar və düşüncə mübadilələri ilə səsə qoyulma və Azərbaycan Milli Hərəkatında təsirli rolu olan şəxsiyyətlərimizlə Məsləhətləşmələrdən sonra ortaq iş komissiyası yaradılaraq Güney Azərbaycanda milli referendum keçirilənə və ilk Milli Məclisin bu barədə iclasının keçirilməsinədək yuxarıda görüntüsünü verdiyimiz üçrəngli göy, qırmızı və yaşıl (üçkünc göy, qırımızı və üçkünc yaşıl rəngli (göy rəngi bayrağın sol yuxarısında, yaşıl isə bayrağın sol aşağısında, ortasında isə səkkiz bucaqlı ağ ulduzlu və ayparalı) bayrağı Güney Azərbaycanın Milli Mübarizə Bayrağı olaraq qəbul edir.

Azərbaycan Mərkəz Partiyası və Azərbaycan Milli Dirəniş Təşkilatının bu bayraq barədə ortaq baxışları aşağıda izah olunur:

1- Üçrəngli bayraq, Azərbaycan Demokratik Cümhuriyyətinin 1918-ci ildən mirası olaraq Bütöv Azərbaycanın bircə Milli Bayrağıdır və vurğuladığımız bayraq ancaq Güney Azərbaycanın Milli Mübarizə Bayrağı olaraq istifadə olacaqdır.
2- Yuxarıda rəsim və təqdim edilmiş bayraq, bundan sonra "Güney Azərbaycanın Milli Mübarizə Bayrağı" olaraq vurğulanacaq.
3- Bu bayraq ilk təklif olunan bayraqlardan biri idi və Azərbaycan Milli Hərəkatı tarixinin bir kəsiyində Azərbaycan Milli Hərəkatının bir hissəsi tərəfindən təklif edilmişdi ki, Azərbaycanın əksər milli fəalları ona dəstək verirdi. Təklif olunan həmin bayraq o vaxtlar dəstəkləyən və bir qisminin bu günə qədər dəstək verdiyi bütün fəallara aiddir.
4- Azərbaycan Milli Dirəniş Təşkilatı və Azərbaycan Mərkəz Partiyasının qəbul və təsdiq etdikləri "Güney Azərbaycanın Milli Mübarizə Bayrağı" beynəlxalq təşkilatların nəzarəti ilə azad və demokratik referendumun keçirilməsi və Güney Azərbaycanın Milli Məclisinin yaradılıb iclaslarının keçirilməsinə dək legitim qalacaq.

5- Öncəki təklif olunmuş bayraq və simvolların barəsində edilmiş bütün müzakirələr və fəaliyyətlərə sayğılarımızı bildirməklə həmin fəaliyyətləri Güney Azərbaycan hərəkatının tarixi zərurəti və təkamülünün bir hissəsi kimi hesab edirik. Yuxarıda görüntüsünü verdiyimiz bayrağın Güney Azərbaycanın Milli Mübarizə Bayrağı kimi qəbul etməyimiz, milli birliyin sağlanması yönündə bir fədakarlıq kimi və milli mübarizənin qarşısında duran maneələrin həlli yöndə bir addım kimi qiymətləndirilməlidir . Başqa sözlə, sair təklif olunmuş bayraqlar və simvollar çevrəsində edilmiş fəaliyyətləri də milli hərəkatın tarixinin bir hissəsi təkin hesab edirik və tariximizin bir parçası kimi onlara sayğı duyuruq.

6- Güney Azərbaycanın Milli Mübarizə Bayrağı, bundan belə, Azərbaycan Milli Direniş Təşkilatı və Azərbaycan Mərkəz Partiyasının, istər ölkə içində istərsə də ölkədən kənar partiya və təşkilat fəaliyyətlərində, o cümlədən konferanslarda, mətbuat və mediada, təşkilat yazışmaları və bəyanatlarında istifadə olacaqdır.

Azərbaycan Milli Dirəniş Təşkilatı

Azərbaycan Mərkəz Partiyası

13/07/2020